# Ulu öndərin ideyaları yaşayır və qalib gəlir

**"Azərbaycan dünyaya günəş kimi doğacaq". Bu məşhur kəlamın müəllifi, bütün dünyada tanınan görkəmli ictimai-siyasi xadim, mahir diplomat və istedadlı dövlət rəhbəri, ümummilli liderimiz Heydər Əliyevdir. Unudulmaz dövlət başçımız bilik və bacarığını əsirgəmədən bütün ömrünü, fəaliyyətini öz xalqına, Vətəninə həsr etdi, müasir Azərbaycan dövlətini qurdu, dövlətçiliyimizin əsaslarını yaratdı.**

Ölkəmizdə elə bir sahə yoxdur ki, ulu öndər Heydər Əliyevin orada izləri olmasın. 1969-cu ildən ömrünün sonuna qədər Azərbaycanın bütün uğurları yalnız onun adı ilə bağlıdır. Ona görə də "Azərbaycan - Heydər Əliyev, Heydər Əliyev - xalq" birliyi əbədidir.

Heydər Əliyev xalqımızın ümummilli lideri, ulu öndərimizdir. Bu, qədirbilən xalqımızın öz müdrik rəhbərinə verdiyi ən layiqli dəyərdir.

Yada salaq ki, 1969-cu ildə respublikamıza Mərkəzi Komitənin birinci katibi təyin ediləndən sonra geridə qalmış, aqrar ölkə olan Azərbaycan qısa müddət ərzində çiçəklənməyə başladı. Bununla da o vaxta qədər milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə, dilimizə, xalqımızın mənsub olduğu miraslara biganə münasibətə son qoyuldu. Böyük rəhbər Azərbaycana başçılıq etdiyi ilk gündən xalqımızın ümumi maraqlarına qarşı yönəlmiş məkrli siyasətə qarşı məqsədyönlü tədbirlər həyata keçirməyə başladı. Sənaye, iqtisadiyyat, tikinti, təhsil, mədəniyyət, incəsənət, ədəbiyyat, elm, kənd təsərrüfatı və digər sahələr sürətlə inkişaf etdirildi, xalqın rifahı yaxşılaşdırıldı.

Bakıda yeni yaşayış massivləri, mikrorayonlar, mədəniyyət sarayları, məktəblər, xəstəxanalar, inzibati idarə binaları, metro stansiyaları, ali məktəb binaları, ictimai-iaşə, məişət, rabitə və s. saysız-hesabsız obyektlər, fabrik və zavodlar inşa edildi. Qısa zamanda Azərbaycan aqrar respublikadan zəngin və inkişaf edən respublikaya çevrildi. Yaşlı və orta nəsillər Heydər Əliyevin həmin cahanşümul fəaliyyətinin şahididir. Biz şahidik ki, hələ o dövrdə Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində bir çox dünya ölkələri Azərbaycanı tanıdı, digər xalqlarda millətimiz, mədəniyyətimiz, musiqimiz, ədəbiyyatımız barədə geniş təsəvvür yarandı.

Ümummilli liderin titanik fəaliyyəti nəticəsində Azərbaycan müttəfiq respublikalar arasında birincilər sırasına çıxdı.

Görkəmli alimlər, müəllimlər, memarlar, musiqi xadimləri, rəssam və heykəltəraşlarımız, pambıqçılarımız, inşaatçılarımız SSRİ-nin orden və medalları, Dövlət mükafatları, fəxri adlarla təltif edildilər.

Ən ali şəxsi keyfiyyətləri ilə SSRİ rəhbərlərinin hamısından yüksəkdə qərar tutan Azərbaycanın böyük oğlu Heydər Əliyevə Kremldə həsəd aparırdılar. Baykal-Amur kimi dünyanın ən böyük magistralının stansiyalarından birinə Heydər Əliyevin adının verilməsi o zaman SSRİ rəhbərlərinin heç birinə göstərilməmiş böyük etimad idi. Müxtəlif millətlərin nümayəndələri Heydər Əliyevə o dərəcədə məhəbbət bəsləyirdilər ki, onu SSRİ rəhbəri kimi görməyi arzulayırdılar. Azərbaycan tarixində Heydər Əliyevin ən böyük xidmətlərindən biri də hələ sovet dönəmində müstəqilliyimizin təməl daşlarını qoymasıdır. 1988-ci ildən Mixail Qorbaçov və onun komandası erməni separatizmini gizli və açıq dəstəkləməklə Dağlıq Qarabağı Azərbaycandan zorla qoparıb Ermənistana vermək üçün ölkəmizi idarə olunmaz vəziyyətə gətirmişdilər.

1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn ulu öndər tarix üçün qısa zaman kəsiyində ölkədə baş qaldırmış anarxiyaya son qoydu, bütün təhlükəli ənənələr birdəfəlik aradan qaldırıldı, ordu quruculuğuna diqqət artırıldı.

Ermənistanla atəşkəs əldə ediləndən sonra "Əsrin kontraktı" adlanan neft sazişləri imzalandı.

Çoxlarının əfsanə adlandırdığı Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi reallığa çevrildi, uzunmüddətli neft strategiyası uğurla həyata keçirilməyə başlandı. Bu strategiyanın gerçəkləşməsi Azərbaycanın dövlət müstəqilliyinin əbədi olmasına ən etibarlı zəmin oldu. Böyük dövlət xadiminin siyasi uzaqgörənliyi sayəsində Azərbaycanın gələcək inkişaf tarixinin əsası qoyuldu.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının yaradıcısı olan ulu öndər, ölkədə bütün demokratik islahatların həyata keçirilməsinə şəxsən nəzarət edərək hüquqi, demokratik, azad, dünyəvi dövlətimizi qurub-yaratdı, onu gələcək nəsillərə miras qoydu. İndi biz insan haqlarının və hüquqlarının bərqərar olduğu suveren, azad bir dövlətin bərabərhüquqlu vətəndaşlarıyıq. Bunun üçün hamımız xalqımızın ümummilli lideri Heydər Əliyevə borcluyuq.

1993-2003-cü illərdə ümummilli lider Heydər Əliyev tərəfindən dünya azərbaycanlılarının həmrəyliyinə nail olunması istiqamətində aparılan işləri də ən önəmli tədbirlərdən biri idi. Onun tərəfindən diaspor və lobbi quruculuğu istiqamətində aparılan işlər bu istiqamətdə siyasətin tərkib hissəsi kimi hədsiz əhəmiyyətli olmuşdur. Bu tarixi şəxsiyyətin ən böyük üstünlüyü isə o idi ki, o, özü həyatı boyu azərbaycanlı adını uca tutmuş, bununla qürur hissi keçirmiş, başqalarına da bu hissi aşılamağa çalışmışdır. Bu dahi şəxsiyyət ömrünün ən mənalı dövrünü cəmiyyətdə milliliyin, həmrəyliyin və bütövlüyün qorunub saxlanmasına xidmətə həsr etmişdir. Birmənalı şəkildə deyə bilərik ki, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində təkcə müstəqil Azərbaycanın dövlət quruculuğunun möhkəmləndirilməsinə, onun beynəlxalq imicinin, dünya dövlətləri arasında nüfuzunun yüksəlməsinə nail olmadı, eyni zamanda o, bütün dünya azərbaycanlılarının milli birliyinin yaradılmasına da əvəzsiz töhfə verdi. Bu işdə təşkilatlanmaya onun verdiyi stimul isə şübhəsiz, xüsusi əhəmiyyət kəsb edir. Bu gün dünyanın müxtəlif ölkələrində Azərbaycan diasporunun yaratdığı 200-dən artıq birlik, cəmiyyət və assosiasiyalar dediklərimizə əyani sübutdur.

Ümummilli liderimiz Heydər Əliyev təkcə dünyada yaşayan soydaşlarımızın bir araya gəlməsinə, onların milli həmrəyliyinin yaradılmasına, birliyinə nail olmaqla eyni zamanda onların vahid lideri səviyyəsinə ucaldı. Bu gün yaşadığımız anlar, izlədiyimiz və şahidi olduğumuz hadisə və proseslər göstərir ki, sağlığında dünya azərbaycanlılarının həqiqi lideri səviyyəsinə yüksəlmiş ümummilli lider Heydər Əliyevin ideyaları, əsasını qoyduğu işlər bu gün də yaşamaqdadır. Ulu öndərin çox böyük dəqiqliklə işlədiyi strategiya 2003-cü ilin oktyabrından başlayaraq onun layiqli varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hələ 2003-cü il Prezident seçkilərinə hazırlıq ərəfəsində keçirdiyi görüşlərdə Azərbaycan seçicilərinə "Heydər Əliyev siyasətini davam etdirəcəyini, Azərbaycanın ümummilli liderinin yolunu davam etdirəcəyini" qətiyyətlə bildirən Azərbaycanın yeni liderinin Prezident kimi fəaliyyətə başladığı ilk gündən bu vədə məsuliyyətlə əməl etməsini həyatda əyani olaraq görürük. Bütün bu işlər bir daha göstərir ki, Azərbaycan Prezidenti Ali Baş Komandanımız İlham Əliyev öz müdrik müəllimi, ulu öndərimiz Heydər Əliyevin başladığı işləri qətiyyətlə, ən yüksək peşəkarlıqla xalqımızın və dövlətçiliyimizin tərəqqisi naminə əzmlə davam etdirir. Bu isə o deməkdir ki, ulu öndərimizin ideyaları bu gün də yaşayır və qalib gəlir.

**Mərdan NƏHMƏTOV,**
**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qobustan rayon şöbəsinin rəisi, polkovnik-leytenant.**